# PROFESSOR ABUZƏR XƏLƏFOVUN KİTABXANAŞÜNASLIQ NƏZƏRİYYƏSİNİN FORMALAŞMASINDA ROLU

**Pərviz Kazimi**

*BDU, Kitabxanaşünaslıq kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru*

Professor Abuzər Xələfov Azərbaycan milli kitabxanaşünaslıq elminin banisidir. Respublikamızda kitabxanaçılıq, biblioqrafiya elmlərinin və ali kitabxanaçılıq təhsilinin yaranması və formalaşması onun adı ilə bağlıdır. Kitabxanaçılıq-informasiya fakultəsinin bütün müəllim heyəti, eləcə də yüksək ixtisas təhsili almış Azərbaycanın kitabxanaşünas kadrları Abuzər Xələfov elmi məktəbinin təmsilçiləridir.

XX əsrin 60-70-ci illərində, sovet kitabxanaşünaslıq məktəbinin formalaşdığı bir dövrdə çox sayda tanınmış alimlər meydana gəldi. Abuzər Xələfov sovet kitabxanaşünaslığının qabaqcıl alimlərindən Stalyarov, Zubav, Kluyev kimi dünya şöhrətli alimlərin opponenti olmuş, onların elmi inkişafında yaxından iştirak etmişdi.

Professor Abuzər Xələfov ölkəmizdə kitabxanaşünaslığın elmi-nəzəri və təcrübi doktrinasını yaratdı və onu üç istiqamətdə - tarixi, sosioloji və texnoloji istiqamətlərdə işləyib özünün "Kitabxanaşünaslıga giriş" dərsliyinə daxil etdi. Kitabxanaların sosial institut olması fikri alimin bütün tədqiqatlarında ana xətt olaraq keçir. Professor Abuzər Xələfov kitabxanaların idarəedilməsi metodikasını işləyib hazırladı və ilk dəfə ona differensial yanaşma metodunu irəli sürdü.

Professor Abuzər Xələfov öz müəllimlərindən böyük bir epoxanın uğurlarını əldə etmişdi və bu ənənələri özündən sonrakı nəsillərə ötürdü. Onun müəllimlərinin hər biri öz sahəsində iz qoymuş, Azərbaycanın tarixində və mədəniyyətində əhəmiyyətli rol oynamış alimlər idi.